# Sürət yarışının həlledici anları yaxınlaşır




qabaqlayaraq lider kimi tamamlayıb. O, 1:43.184-lük göstəriciyə imza atıb. Ferstappendən sürətdə müvafiq olaraq “Ferrari” pilotları Şarl Lekler və Karlos Sayns geri qalıb.

İkinci sərbəst yürüşdə "Red Bull"un digər pilotu Serxio Peres finişə birinci çatıb. Maks Ferstappen isə bu dəfə ikinci olub.

**Maks Ferstappen:**

– Mən Formula 1-in 2019 və 2020-ci il mövsümlərinin ikiqat bürünc mükafatçısıyam. Yeddi il əvvəl isə Formula 3 Mastersin qalibi olmuşam. İlk günün sevinci böyük oldu. Üçüncü test yürüşü və sıralama turunda da, nəhayət, iyunun 6-da əsas mərhədə də qələbə sevinci yaşamaq əzmindəyik. Mən hələ Azərbaycan səfəri ərəfəsində demişdim ki, izləyiciləri Bakıda daha rəqabətli yarış gözləyir. Burada sürətli olmağın özünəinamla heç bir əlaqəsi yoxdur. Bu, tamamilə fərqli küçə trekidir. Onu Monako Qran prisi ilə müqayisə etmək olmaz. Bazar günü burada pilotların paradında da həvəslə iştirak edəcəyik.

Bakıya gəlincə isə, 2017-ci ildə də demişəm, məncə, Bakı treki digərlərinə bənzəmir. Təkcə uzunluğu ilə yox, həm də ən dar döngələri ilə unikaldır. İkinci sektorun bəzi



Xatırladaq ki, əvvəlki illərin Bakı Qran prilərində “Mersedes”in pilotu, dəfələrlə dünya çempionu, britaniyalı Luis Hamilton qalib gəlmişdi. Amma bu yarışın ilk günündə o da, finlandiyalı yoldaşı Valtteri Bottas da imkanları səviyyəsində nəticəyə nail ola bilməyiblər. Hamilton əvvəlcə 7-ci, sonra isə 11-ci olub.

**Valtteri Bottas:**

– Əvvəldən bəxtim gətirmədi. Helsinki Hava Limanında buraya uçuşla bağlı üzləşdiyim problem səbəbindən aeroportda 6 saat qalmalı oldum. Yarışöncəsi media-gündə də onlayn şəkildə iştirak etdim. Cari mövsüm üç mərhələdə ikinci olsam da, iki dəfə

ünlü pilotların adı ondan sonra çəkilib. Nikita jurnalistlərə müsahibəsində bildirib ki, hələ 2019-cu ildə Bakıda Formula 2 yarışlarında mübarizə apardığını və sürücülərin yüksək sürət yığmasına imkan verən treki yaxşı xatırlayır. O vurğulayıb ki, trasın

İçərişəhərdən keçən hissəsində bəzi sahələr Monako trekinə bənzəsə də, Bakı tamamilə fərqlidir.

**Nikita Mazepin:**

– Monakodakı çıxışımdan məmnunam və burada növbəti mərhələni səbirsizliklə gözləyirəm. Bakı Şəhər Halqasında yüksək sürəti hiss etmək çox maraqlıdır. Cümə günü sərbəst yürüş xoşuma gəldi. Düşünürəm ki, hər şey yaxşıdır. İrəliyə doğru bir neçə addım atmışıq. Maşınımız sıxım gücünə görə çox da yaxşı işləməsə də, biz bolidi daha çox sıxırıq. Düzdür, uzun məsafələrdə şinlər daha çox qızırdı, amma bu problemlə tək biz deyil, bütün koman-

bilmədilər. “Red Bull” və “Mersedes”in öndə gedəcəkəri mümkündür. Onlar da dünən özlərini göstərə bilmədilər. “Maklaren”i əsas rəqib sayıram. Çalışmalıyıq ki, bütün potensialımızı ortaya qoyaq. Hər kəsə uğurlar! Bakını yenidən görməksə bizim üçün olduqca xoşdur!

“Maklaren” komandasının pilotu Lando Norris həlledici mərhələdə onları “Alfa Tauri”, “Alpin” və digər komandalarla sıx mübarizənin gözlədiyini açıqlayıb.

**Lando Norris:**

– Onu deyim ki, hazırda “Ferrari” və “Red Bull”, deyəsən, bizdən xeyli öndədirlər. Odur ki, əsas məqsədimiz üçüncü seqmentə düşmək olacaq. Monako Qran-prisindən sonrakı mətbuat konfransında Karlos Sayns bəyan etmişdi ki, mənim Bakı yürüşünü böyük optimizmlə gözləməyimə dəyər. Amma temperatur fərqi üzündən qəti fikir söyləmək çətindir. Pis görünmürük, hərçənd “Red Bull” və “Ferrari”dən xeyli geridəyik. Ümid edirəm ki, yaxşı olar.

Norrisin komanda yoldaşı, avstraliyalı Daniel Rikkardo müsahibəsində simulyatorla məşqdən sonra özündə müəyyən irəliləyiş hiss etdiyini bildirib.

**Daniel Rikkardo:**

– Yarışqabağı bir neçə gün simulyatorda ciddi çalışmışam. Bu, nəticəsiz qalmayıb. Bolidimin döngələrdəki davranışı gözləntiləri doğrultdu. İndi sadəcə bacardığımı etməli və bütün səyləri birləşdirməliyəm. Yaxşı olar. Hamıya uğurlar!

**Hazırladı:**
**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**